# VITEX CİNSİNƏ AİD OLAN Vitex agnus-castus NÖVÜNÜN ABŞERONDA İNTRODUKSİYASI VƏ EFİRYAĞLILIĞI

**İradə Məmmədova, Afət Bağırlı**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Dendrologiya İnstitutu, irade_mamedov@mail.ru*

Azərbaycan florasına daxil olan bitkilərin 1500-dən çox növü dərman əhəmiyyətlidir ki, onların da təxminən 800-ü efiryağlı bitkilərə aiddir. Efiryağlı bitkilərin kompleks bioloji aktiv maddələrə malik olması tədqiqatçıların diqqətindən kənarda qalmamış, bu sahədə müxtəlif aspektli genişmiqyaslı araşdırmaların aparılmasına səbəb olmuşdur. Ədəbiyyat məlumatlarına görə, dünya əhalisinin 80%-i bitkilərdən alınan dərmanlardan istifadə edir. Aromatik bitkilərin əksəriyyəti müəyyən bir dozada mikroböldürücü xüsusiyyətə malik olur. Həmin bitkilərin efir yağlarının tərkibini əsas etibarilə terpenlərdən ibarət qarışıqlar təşkil edir. Bu cür perspektivli efiryağlı bitkilərdən biri Abşeronun iqlim şəraitində yaxşı becərilən *Viteks aqnus-castus* L. – Adi ərgudədir.

*Viteks aqnus-castus* – Adi ərgudə – *Verbenaceae* Jaume – Hil (Müqəddəs ağac, İbrahim ağacı, Monastır bibəri də deyilir) Minaçiçəyikimilər fəsiləsinin Ərgudə cinsinə daxildir. Adi ərgudə toxumu 1951-ci ildə Batumi Botanika bağından gətirələrək Dendrologiya İnstitutunda introduksiya olunmuşdur.

Bitki yabanı halda Aralıq dənizyanı ölkələri, Şimali Amerika, Şimal-Şərqi Afrikada tropik və subtropik zonalarda, Kiçik Asiya, İran, Krasnodar, Qafqazda, Krımın meşə və qoruqlarında yayılmışdır. Yarpaqlarını tökən, genişçətirli, 3 m-ə qədər hündürlüyü olan agacdır. Bozumtul bənövşəyi rəngli, ətirli çiçəkləri budaqların uclarında sıx, salxım halında olur. Yarpaqları qarşı-qarşıya yerləşən 3-7 yarpaqcıqdan ibarət barmaqşəkilli mürəkkəb yarpaqdır. Boruşəkilli çiçəkyanlığı beşüzvlüdür. Kasacıq boruşəkilli olub, beşdişciklidir. Erkəkciyi dörd ədəd olmaqla çiçək tacından xaricə çıxır. Çiçək tacı sıx çiçək qrupunda yerləşir. İyun ayından sentyabra kimi çiçəkləyir, çiçəkləyəndə olduqca gözəl görünür. Kiçik, kürəşəkilli, qaramtıl meyvələri əzildikdə istiot dadı verir. Tozlanması həşəratlar vasitəsilə gedir. Bitki çox güclü və xoş ətrə malikdir. Meyvələri oktyabr-noyabr aylarında yetişir. Gözəl balverən bitkidir.

Tədqiqatlar 2020-2021-ci illərdə Dendrologiya İnstitutunun Ağac-kolların introduksiyası və iqlimləşdirilməsi və Efiryağlı bitkilər laboratoriyalarında aparılmışdır. Adi ərgudənin toxumla çoxaldılması Q.A.Firsova (1955), cücərtilərin morfoloji xüsusiyyətləri İ.T.Vasilçenko (1960), illik boy artımı A.A.Molçanov (1967) metodikaları əsasında öyrənilmişdir. Tədqiqat zamanı yerli şəraitdə yığılan toxum materiallarından istifadə edilmişdir. Toxumların cücərmə qabiliyyətinin səpin vaxtından asılılığı öyrənilmişdir. Apardığımız fenoloji müşahidələrdən müəyyən olmuşdur ki, adi ərgudə bitkisi Abşeron şəraitində bol çiçəkləyir və çoxlu miqdarda toxum əmələ gətirir. Toxumla aparılan səpinlərin nəticəsi cədvəl 1-də əks olunmuşdur.

Bu bitki həmçinin vegetativ yolla da çoxaldılır. Bizim təcrübələrdə onlardan yalnız biri – odunlaşmış qələmlərlə çoxaltma üsulu tətbiq edilmişdir. Vegetativ çoxaltma institutun təcrübə sahələrində açıq şəraitdə aparılmışdır. Bunun üçün qələmlər birillik zoğlardan 20-25 sm uzunluğunda kəsilib hazırlanmışdır. Qələmlər iki dövrdə, mart-aprel aylarında əkilmişdir (cədəl 2).

Laboratoriya şəraitində yeni yarpaqların efiryağlılığının müəyyənləşdirilməsi Klevendjerin hidrodistilyasiya üsulu ilə, uçucu yağların komponent tərkibi isə "Chromatek-Crystal 2000 M" qazmaye xromotoqrafiyasında aparılmışdır. Efir yağının əsas komponentlərinin çəki nisbəti xromatoqrafda qazoxromatoqrafiya üsulu ilə kapilyar sütun vasitəsilə müəyyən edilmişdir. Komponentlərin kütlələrini hesablamaq üçün normallaşdırma üsulundan istifadə edilmişdir. Müəyyən edilmişdir ki, ərgudə yarpaqlarındakı efir yağının konsentrasiyası 0,45% və açıq sarımtıl rəngli mayedir. Yarpaqların efir yağında 20 komponent identifikasiya edilmişdir və əsas maddələr 1,8-sineol (28,3%), β-пинен (13,1%)-dir.

**Cədvəl 1.** Tədqiq olunmuş növün toxumunun səpin nəticəsi və cücərmə faizi

| Növ | Səpin vaxtı | | Yazda əkilmiş toxum | | Payızda əkilmiş toxum | |
|---|---|---|---|---|---|---|
| | Yaz | Payız | Cücərmə vaxtı | Cücərmə % | Cücərmə vaxtı | Cücərmə % |
| *Vitex agnus-castus* L. | 25.03.2021 | 10.11.2021 | 17.04.2021 | 70 | 20.04.2021 | 70 |

**Cədvəl 2**. *Vitex agnus-castus* L. növü qələmlərinin boy artımı

| Növ | Qələmlərin sayı | Qələmlərin basdırılma vaxtı | Kök alma %-i | Ayılma vaxtı | Böyümənin başlanması | 1 illik zoğların uzunluğu, sm | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | İyun | | İyul | | Avqust | |
| | | | | | | 15 | 30 | 15 | 30 | 15 | 30 |
| *Vitex agnus castus* | 50 | 01.03.16 | 7-14 | 10.05 | 18.05 | 30 | 33 | 60 | 63 | 90 | 94 |
| | | 27.04.17 | 10-18 | 25.05 | 31.05 | 16 | 22 | 40 | 43 | 85 | 97 |

Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, bitkinin vegetativ yolla çoxaldılması daha perspektivli olur. Xammalın yarpağından alınan yağ daha çox yüksək təsirə malikdir və güclü antimikrob xüsusiyyətli maddələrlə zəngindir. Qadın xəstəliklərinin demək olar ki, hamısında bitkinin yarpağından və toxumundan istifadə edilir. Bir çox dövlətlərin, xüsusilə Şərq ölkələrinin kulinariyasında yarpaq və meyvələri ət yeməklərinə, şorbalara, kolbasalara, balıq konservlərinə, mürəbbələrə əlavə olunur. Əsasən kosmetika, dərman, qida sənayesi, aromaterapiya və fitoterapiya sahələrində tətbiq edilir. Həmçinin gözəl dekorativ və ətirli çiçəkləri olduğuna görə yaşıllaşdırmada istifadəsi məqsədəuyğundur.